**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Əmr 036
«06» mart 2000-cı il
Sədr ______________ H. Babayev

# Açıq investisiya fondlarının xalis aktivlərinin qiymətləndirilməsi qaydaları haqqında

# Ə S A S N A M Ə

## 1. Ümumi muddəalar

1.1. Bu Əsasnamə «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 05 yanvar 2000-ci il tarixli 245 nömrəli Fərmanının, Azərbaycan Respublikasının Prezidentinin 14 may 1997-ci il 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İxtisaslaşdırılmış çek investisiya fonları haqqında» Əsasnamənin və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında» Əsasnamənin tələblərinə müvafiq olaraq hazırlanmışdır.

1.2. Əsasnamə Azərbaycan Respublikasının ərazisində açıq investisiya fondlarının (bundan sonra fondlar) xalis aktivlərinin qiymətləndirilməsi və xalis aktivlərin dəyəri barəsində hesabatın tərtib olunması qaydalarını müəyyən edir (hesabat forması əlavə olunur).

## 2. Əsas anlayışlar

2. Əsasnamədə aşağıdakı anlayışlardan istifadə edilmişdir:

investisiya fondunun aktivləri – fondun uzunmüddətli aktivlərindən (uzunmüddətli maliyyə qoyuluşları və digər uzunmüddətli qoyuluşlar) və cari aktivlərindən (qısamüddətli maliyyə qoyuluşları, pul vəsaitləri və hesablaşmalarda olan vəsaitlər) ibarət olan əmlak;

investisiya fondunun passivləri – fondun uzunmüddətli öhdəlikləri (kreditlər, borc vəsaitləri və digər cəlb edilmiş vəsaitlər) və qısamüddətli öhdəlikləri (kreditor borcları, büdcəyə ayırmalar üzrə borclar, büdcədən kənar fondlar üzrə borclar və s.);

Fondun passivlərinə onun xüsusi vəsaitləri (ödənilmiş nizamnamə kapitalı, bölüşdürülməmiş gəlir, xüsusi tə'yinatlı fondlar və xüsusi vəsaitlərin digər mənbələri), habelə subvensiya və dotasiyalar aid edilmir.

investisiya fondunun xalis aktivləri – fondun aktivləri ilə passivləri arasındakı fərq məbləği. Bu halda fondun ayrı-ayrı aktivləri onların bazar dəyərini nəzərə almaqla yenidən qiymətləndirilə bilər;

balans (uçot) dəyəri – fondun aktiv və passivlərinin mühasibat uçotunda və balansda əks etdirilən dəyəri;

bazar qiymətləndirilməsinə (kotirovkasına) malik qiymətli kağızlar – aşağıdakı me'yarlara cavab verən qiymətli kağızlardır:

birjada və birjadankənar bazarda qiymətləndirilərsə (bu qiymətlər müntəzəm olraq mətbuatda şərh edilərsə).

investisiya fondunun qiymətli kağızlar portfeli – fondun mülkiyyətində olan qiymətli kağızların məcmusu.

## 3. Xalis aktivlərin qiymətləndirilməsi

3.1. İnvestisiya fondunun xalis aktivlərinin qiymətləndirilməsi onun səhmlərinin satış qiymətinin müəyyən edilməsi, fond müdirinin fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi və ona verilən illik mükafatın həcminin müəyyən edilməsi məqsədilə aparılır.

3.2. İnvestisiya fondunun xalis aktivlərinin qiymətləndirilməsinin dövrülüyü:

3.2.1. Müntəzəm qiymətləndirmə.

Fondun aktivlərinin müntəzəm qiymətləndirilməsi hər rübün axırına aparılır. Səhmdarlara səhmlərin alınmasına qədər xalis aktivlərin qiymətləndirilməsinin dövrülüyü barədə mə'lumat verilməlidir. Qiymətləndirmənin dövrülüyündə edilən hər hansı dəyişikliklər barəsində mə'lumatlar fondun vəzifəli şəxsləri (fond müdiri) tərəfindən səhmdarların nəzərinə çatdırılmalıdır.

Fondun xalis aktivlərinin müntəzəm qiymətləndirilməsinin nəticələri xalis aktivlərin dəyərinə dair hesabatda əks etdirilməlidir.

3.2.2. Əlavə qiymətləndirmə.

Fondun bir ödənilmiş səhminə düşən xalis aktivlərinin dəyəri qiymətləndirmə aparıldıqdan sonra ötən müddətdə 10%-dən çox artarsa, yaxud azalarsa fondun müdiri xalis aktivlərin əlavə qiymətləndirilməsini həyata keçirir. Fondun müşahidə şurası istənilən vaxt səhmdarların mənafelərini nəzərə alaraq, zəruri hallarda öz

mülahizələrinə uyğun olaraq fond müdirindən xalis aktivlərin əlavə qiymətləndirilməsini tələb etmək hüququna malikdir. Əlavə qiymətləndirmə aparıldıqdan sonra fond müdiri 3 (üç) iş günü müddətində qiymətləndirmənin nəticələrini müşahidə şurasına təqdim edir. Müşahidə şurası bu barədə mə'lumatları fondun səhmdarlarının nəzərinə çatdırır.

Bir ödənilmiş səhmə düşən xalis aktivlərin dəyəri 50%-dən aşağı düşdükdə fond müdiri səhmdarların ümumi yığıncağını çağırmağa borcludur.

3.2.3. İnvestisiya fondunun aktiv və passivlərinin bütün növləri eyni tarixə manatla qiymətləndirilir.

## 4. İnvestisiya fondunun qiymətləndirilən əmlakının tərkibi

4.1. İnvestisiya fondunun xalis aktivlərinin dəyərini müəyyən etmək üçün fondun qiymətləndirilən aktivlərinin tərkibinə aşağıdakılar daxildir:

investisiya fonduna məxsus olan əsas vəsaitlər;

uzunmüddətli maliyyə qoyuluşları;

qeyri-maddi aktivlər;

azqiymətli və tezköhnələn əşyalar;

məsrəflər;

debitorlarla hesablaşmalar;

malgöndərən və podratçılara ödənilmiş avanslar;

özəlləşdirmə çeklərinə yönəldilən investisiyalar da daxil olmaqla, qısamüddətli maliyyə qoyuluşları;

hesablarda və hesablaşmalarda olan pul vəsaitləri.

4.2. İnvestisiya fondunun mühasibat balansının aktivində əks etdirilən keçmiş illərdən qalmış və hesabat ilinin bağlanmamış zərərinin məbləği onun qiymətləndirilən əmlakının tərkibinə daxil edilmir.

4.3. İnvestisiya fondunun xalis aktivlərinin dəyərini hesablayarkən aktivlərin ümumi məbləğindən aşağıdakı passiv maddələr çıxılır:

fondun icarə öhdəlikləri;

e'lan edilmiş dividendlər üzrə fondun səhmdarlara olan borcları;

qısamüddətli kreditlər;

kreditorlarla hesablaşmalar, depozitara və fond müdirinə göstərdiyi xidmətlərə və yerinə yetirdiyi işlərə görə ödəmələr, habelə əmək haqqı, büdcədənkənar fondlar, büdcə və digər kreditorlarla hesablaşmalar üzrə borclar;

alıcıların avans ödəmələri;

qarşıdakı xərclər və ödəmələr üzrə ehtiyatlar;

gələcək dövrün xərcləri;

ümidsiz borclar üzrə ehtiyatlar.

5. İnvestisiya fondunun aktiv və passivlərinin qiymətləndirilməsi qaydaları

5.1.Maliyyə qoyuluşlarının qiymətləndirilməsi:

5.1.1. Bazar qiymətləndirilməsinə (kotirovkasına) malik olan qiymətli kağızlar onların bazar dəyəri ilə qiymətləndirilir.

Qiymətli kağızların bazar dəyəri dedikdə qiymətləndirmənin aparıldığı tarixdən əvvəlki ayda həmin qiymətli kağızların satıldığı orta qiymət başa düşülür. Əgər həmin ay ərzində qiymətli kağızların alqı-satqısı baş verməyibsə, onda son hesabat rübünün son ayının orta göstəricisi götürülür;

5.1.2. Fond birjasında satılmayan və yaxud bazar qiyməti (kotirovkası) olmayan qiymətli kağızlar, bazar qiyməti ilə o hallarda qiymətləndirilir ki, onlar ən azı iki qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən alınıb-satılsın və rüb ərzində qiymətli kağızların ümumi emissiyasının 3 faizindən çoxu satılsın;

5.1.3. Yuxarıda göstərilənlərdən başqa qiymətli kağızlar, o cümlədən özəlləşdirmə çekləri balans (uçot) dəyəri ilə qiymətləndirilir;

5.1.4. İnvestisiya fondunun xalis aktivlərinin düzgün və vaxtında qiymətləndirilməsinə görə fondun (müdiri) müdriyyəti və fondun digər səlahiyyətli vəzifəli şəxsləri məs'uliyyət daşıyırlar.

Maliyyə ili başa çatdıqdan sonra investisiya fondunun xalis aktivlərinin düzgün və vaxtında qiymətləndirilməsi barəsində auditorun rə'yi olmalıdır.

5.2. Fondun məsrəfləri, debitorlarla hesablaşmaları, malgöndərən və podratçılara ödənilmiş avanslar, hesablarda və hesablaşmalarda olan pul vəsaitləri onların balans dəyəri ilə qiymətləndirilir. Bu halda fondun valyuta vəsaitləri qiymətləndirmənin aparıldığı tarixə rəsmi məzənnə əsasında qiymətləndirilir.
5.3. Fondun əsas vəsaitləri, qeyri-maddi aktivlər, azqiymətli və tezköhnələn əşyalar qalıq dəyəri üzrə qiymətləndirilir.

5.4. Fondun bu Əsasnamənin 2-ci bölməsinin 3-cü bəndində göstərilən passivləri balans (uçot) dəyəri ilə qiymətləndirilir.

5.5. Fondun səhmlərinin 5 faizinə malik olan səhmdarların yazılı tələbi ilə onun aktiv və passivlərini qiymətləndirmək üçün fondun auditoru cəlb edilə bilər.

## 6. Xalis aktivlərin dəyərinin hesablanması qaydası

6.1 İnvestisiya fondunun xalis aktivlərinin ümumi dəyəri aşağıdakı qaydada müəyyən edilir:

(min manatla)

Miqdarı

I Uzunmüddətli maliyyə qoyuluşları

II Qısamüddətli maliyyə qoyuluşları

III Əsas vəsaitlər və qeyri-maddi aktivlər

IV Azqiymətli və tezköhnələn əşyalar və xərclər

V Pul vəsaitləri, hesablarda olan vəsaitlər və digər aktivlər (balans dəyəri ilə zərərlər çıxılmaqla)

VI (I+V) İnvestisiya fondunun aktivlərinin cəmi

VII Gələcək dövrün gəlrləri

VIII Ümidsiz borclar üzrə ehtiyatlar

IX Kreditlər, borc vəsaitləri və müvəqqəti cəlb edilmiş vəsaitlər (balans dəyəri ilə)

X (VI-(VII+VIII+IX)) Fondun xalis aktivlərinin ümumi məbləği

XI Fondun ödənilmiş səhmlərinin sayı __________ ədəd

XII (X/XI) Bir ödənilmiş səhmə düşən xalis aktivlərin dəyəri

6.2 Bu qaydada hesablanmış bir ödənilmiş səhmə düşən xalis aktivlərin dəyəri alqı-satqı üçün məqbul qiymət götürülür. Bu halda bir səhmə düşən xalis aktivlərin məbləği vasitəçilərə verilən komissiya haqqı qədər artırıla bilər.

İnvestisiya fondunun xalis aktivlərinin dəyəri və maliyyə nəticələri haqqında

# H E S A B A T

____________________________ 2000-ci il tarixinə

_______________________________________(investisiya fondunun tam adı)

Hüquqi ünvanı və lisenziyanın nömrəsi: ___________________________________________________________________________

1. Xalis aktivlərin hesablanması (min manatla)

| | Balansda şərtin kodu | Dövrün əvvəlinə | | Dövrün axırına | |
|---|---|---|---|---|---|
| | | balans dəyəri | Hesablanmış dəyəri | balans dəyəri | Hesablanmış dəyəri |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1. Fondun aktivləri | | | | | |
| 1.1 Uzunmüddətli maliyyə qoyuluşları (06) (reyestr əlavə olunur) | 050 | | | | |
| 1.2. Qeyri-maddi aktivlər (qalıq dəyəri ilə) | 012 | | | | |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| 1.3. Əsas vəsaitlər (qalıq dəyəri ilə) | 022 | | | | |
| 1.4. Azqiymətli və tezköhnələn əşyalar (qalıq dəyəri ilə) | 122 | | | | |
| 1.5. Məsrəflər | | | | | |
| 1.6. Debitorlarla hesablaşmalar: | | | | | |
| a) mallar, iş və xidmətlərə görə | 200 | | | | |
| b) alınmış veksellərə görə | 210 | | | | |
| v) büdcə ilə (68) | 230 | | | | |
| q) sair debitorlarla | 250 | | | | |
| 1.7. Malgöndərən və podratçılara verilmiş avanslar | 260 | | | | |
| 1.8. Qısamüddətli maliyyə qoyuluşları (58) (reyestr əlavə olunur), | | | | | |
| o cümlədən özəlləşdirmə çekləri | 271 | | | | |
| 1.9. Pul vəsaitləri | | | | | |
| a) Kassa (50) | 280 | | | | |
| b) Hesablaşma hesabı (51) | 290 | | | | |
| v) Valyuta hesabı (52) | 300 | | | | |
| q) Sair pul vəsaitləri | 310 | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.10. Fondun aktivlərinin yekunu (1.1-1.9. sətirlərinin cəmi) | | | | | |
| 2. Fondun passivləri | | | | | |
| 2.1. İcarə öhdəlikləri (97) | 440 | | | | |
| 2.2. Tə'sisçilərlə hesablaşmalar (75) | 450 | | | | |
| 2.3. Qısamüddətli bank kreditləri (90) | 600 | | | | |
| 2.4. Kreditorlarla hesablaşmalar: | 012 | | | | |
| a) mallar, iş və xidmətlərə görə (60) | 630 | | | | |
| b) əməyin ödənişinə görə (70) | 650 | | | | |
| v) sosial sığorta və tə'minatlara görə (69) | 660 | | | | |
| q) əmlak və şəxsi sığorta üzrə (69) | 670 | | | | |
| ğ) büdcədənkənar ödənişlər üzrə | 690 | | | | |
| d) büdcə ilə (68) | 700 | | | | |
| e) sair kreditorlarla | 710 | | | | |
| 2.5. Alıcılar və sifarişçilərdən alınan avanslar (64) | 720 | | | | |
| 2.6. Gələcək dövrlərin xərcləri | 730 | | | | |
| 2.7. Qarşıdakı xərclər və ödənişlər üçün ehtiyatlar (89) | 740 | | | | |
| 2.8. Ümidsiz borclar üzrə ehtiyatlar | 750 | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.9. Sair öhdəliklər | | | | | |
| 2.10. Fondun passivlərinin yekunu 2.1-2.9 sətirlərinin cəmi (xalis aktivləri müəyyən edəndə fondun aktivlərinin dəyərindən çıxılır) | | | | | |
| 3. Xalis aktivlərin dəyəri-cəmi (1.10-2.10) | | | | | |
| 4. Ödənilib, ədəd səhm | | | | | |
| 5. Bir ödənilmiş səhmə görə təmizaktivlərin dəyəri (3/4) | | | | | |

Arayış: Hesabat dövrü üçün aktivlərin orta illik dəyəri ____________ min manatla

II. İnvestisiya fondunun maliyyə qoyuluşları

2.1. Uzunmüddətli maliyyə qoyuluşları:

| | İstiqrazların və başqa İnvestisiyaların növü | Ümumi no-minal dəyəri | Faiz, ödəniləsi dividend | Balans Dəyəri | Hesablanmış dəyər | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | cari dövr üçün | Keçən ilin müvafiq döv rü üçün | Artım (+) Azalma (-) |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | Uzunmüddətli maliyyə qoyu-luşları – cəmi | | | | | | |

2.2. Qısamüddətli maliyyə qoyuluşları:

| | İstiqrazların və başqa İnvestisiyaların növü | Ümumi no-minal dəyəri | Faiz, ödənilәsi dividend | Balans Dəyəri | Hesablanmış dəyər | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | cari dövr üçün | Keçən ilin müvafiq döv rü üçün | Artım (+) Azalma (-) |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 1 | Özəlləşdirmə çekləri | | | | | | |
| 2 | Digər qısamüddətli maliy-yə qoyuluşları | | | | | | |
| 3 | Qısamüddətli maliyyə qoyuluşları - cəmi | | | | | | |

III. İnvestisiya fondunun maliyyə nəticələri

| Göstəricilərin adı | Sətrin kodu | Gəlir | Zərərlər(məsrəflər) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| İştirak payından dividend və gəlirlər | 010 | | |
| İstiqrazlardan faizlər (gəlirlər) | 015 | | |
| İnvestisiya fondunun aktivlərinin satışdan əldə edilən maliyyə göstəriciləri | 020 | | |
| Valyuta hesabları və xarici valyuta ilə əməliyyatlar üzrə məzənnə fərqindən yaranan maliyyə nəticələri | 030 | | |
| Alınmış və ödənmiş cərimələr, peniyalar və digər sanksiyaların qalığı, zərərin ödənilməsi üzrə xərclər və gəlirlər | 040 | | |
| Keçmiş illərin cari ildə aşkarlanmış gəlirləri (xərcləri) | 050 | | |
| İnvestisiya fondunun yaranması və fəaliyyəti ilə əlaqədar xərclər | 060 | | |
| Sair gəlirlər və xərclər (itkilər) | 070 | | |

| | | | |
|---|---|---|---|
| Mənfəətin və zərərlərin cəmi | 080 | | |
| Balans mənfəəti və ya zərəri | 090 | | |